ədalət.-2017.-31 mart.-S.4.

# İLHAMI BULAQDAN GÖTÜRƏNDƏ

## VƏ YA SAHİB ƏLİYEVİN YENİ KİTABI HAQQINDA

**"Açıq dünya" nəşriyyatı bu günlərdə Sahib Əliyevin yeni bir kitabını çapdan buraxmışdır.**

"Kim ki, bu dünyanı güldürə bilsə" adlı həmin kitab şairin oxucularla iyirmi birinci görüşüdür. Kitabı oxuyanda adamın yadına təbiətdə baş verən ənənəvi bir hadisə gəlib düşür: Yazda göylərdən tökülən gur yağışlar çayların suyunu çoxaltdığı üçün çaylar çağlayıb-coşur və hər tərəfə haray salır. Yay gələn kimi isə yağışlar həm dayanır, həm də Günəşin hərarəti suları buxarlandırır və beləliklə də, çayların çoxu əvvəlki səviyyəsindən aşağı düşür, bəziləri isə hətta quruyur da.

Lakin elə çaylar da var ki, yayda da suyu əvvəlki kimi çağlayır. Çünki bu çaylar suyunu əsasən, dağların qoynundan pıqqıldayıb çıxan çeşmə bulaqlardan götürür. Həmin bulaqlar da - istər yaz olsun, istərsə yay - səpsərin sularla həmişə dolu olur.

İlham da belədir, gənclik illərində şairin sinəsində çay kimi çağlayır, yaş ötdükcə isə ya bir qədər azalır, ya da bəzi çaylar kimi quruyur. Amma elə şairlər də var, ilhamı yaşa baxmır, gənclik illərində necə çağlayıbdısa, yaşa dolandan sonra da elə çağlayır. Belə şairlər cərgəsində

Sahib Əliyevin də adını çəkmək olar.

Sahib Əliyev, əslində, ilham çeşməsini, ilk öncə, doğulduğu dağlar diyarı Yardımlının gur bulaqlarından götürmüşdür. Buna görə də cavanlığında hansı həvəslə yazırdısa, indi də həmin həvəs üstündə ötür, poeziya aləminə bir-birindən gözəl nəğmələr gətirir . Bunu şairin sevgi şeirləri bir daha aydın göstərir. Sahibin sevgi şeirlərini oxuyanda elə bilirsən ki, bu şeirləri yazan iyirmi yaşında cavan bir oğlandır. Və bir də görürsən, bu "cavan oğlan" əlinə qələm götürüb yazdı: "Məni eşq qoruyur, sevgi saxlayır". Elə həmin şeirdə də aləmə car çəkib deyir:

**Sevgi - qucağımda gülümsəyən yaz,
Sevgi - sinəm üstə dillənən tar, saz.**

Beləliklə də, şeir belə bir əhval-ruhiyyə ilə başa çatır:

**Sahibin sözlərin sanmayın saxta -
Sevgisiz bir ömür bir quru taxta.
Özüm də heyranam özümdə baxta,
Məni eşq qoruyur, sevgi saxlayır.**

Kitabın "Məhəbbət cavan qalır" bölməsindəki şeirlərin əksəriyyəti məhz bu ruhda yazılmışdır. Bu cəhətdən "Yaşa həqiqət kimi", "Gözlərin göy dənizdir", "Sevgi də pətəkdə şana bənzəyir", "Gülər üzlüm", "Şəklimə bax, əzizim" və başqa şeirlər diqqəti daha çox cəlb edir. Başqa cür desək, bu incə, lirik şeirlər ürəyə yağ kimi yayılır, hislərə dərhal təsir edir, əhval-ruhiyyəni qat-qat yüksəldir.

Şairin ən yaxşı cəhətlərindən biri də odur ki, o, bəzi yazanlar kimi, cəmi bir və ya bir neçə mövzunun əhatəsində ilişib qalmır, həyatın bütün sahələrinə toxunur, hər şeydən yazmağa maraq göstərir. Onun yaradıcılığında dünya haqqında yazılmış şeirlər daha çox yer tutur. Bunu kitabdakı "Vətən də dünyanın içindən keçir" adlı birinci bölmədə gedən şeirlərdən də aydın görmək olar. Həmin şeirlərdən belə bir nəticə çıxır: Dünya bizim ümumi evimizdir, biz onun qucağında boy atıb, ucalırıq. O, bizi sevdiyi kimi, biz də onu sevməli, öz əməllərimizlə onun başını ucaltmalıyıq.

Təəssüf ki, bəzən dünyanı şairin düşündüyü kimi görə bilmirik. Bəzi naxələf adamlar öz naqis hərəkətləri ilə dünyanı qarışdırır, onu gözdən salmağa çalışırlar. Bu hesaba da dünyada əgər-əksikliklər yaranır. Budur, "Rəngləri gör necə qarışdırıblar" şeirində həmin əgər-əksiklərin nəticəsi göz qabağındadır:

**Rəngləri gör necə qarışdırıblar,
Qırmızı seçilmir qaradan indi.
Pozulub tərəzi, pozulub mizan,
Bütöv yüngül gəlir paradan indi.**

"Qarabağ düşmənə təslim olan gün", " Bizim qərib dağlar da var", "Peşmanam dünyaya gəldiyim üçün", " Axı, bu korlanan dünya mənimdi" və bir sıra başqa şeirlər də dünyanın ağrı-acılarını açıb göstərir. Şair bu ağrı-acıları aradan qaldırmaqüçün insanları mübarizəyə çağırır, onlardan dünyanı yaxşılaşdırmağı tələb edir. Nəhayət, "Kim ki, bu dünyanı güldürə bilsə" şeirində insanlara deyir:

**Kim ki, bu dünyanı güldürə bilsə,
Ən yaxşı övladı odu dünyanın.**

Şair, ümumiyyətlə, dünyanı həmişə gözəl görmək istəyir. İstəyir ki, göylər daim işıqlı, torpaq daim yaraşıqlı olsun. Onun bu istəyi bir sıra şeirlərinin, necə deyərlər, qanına və canına hopmuşdur.

Götürək elə "Bu gecənin gözəlliyi" şeirini. Həmin şeiri oxuduqca, adamın əhval-ruhiyyəsi qalxır, zövq alırsan şairin misralarından:

**Ulduzlar səmadə elə düzülüb,
Elə bil yol gedir işıq karvanı.
Işıqdan qorxuya düşən zülmətin
Bu gecə hikkədən çıxıbdı canı.
Ağaclar geyinib yaşıl paltarın,
Baxıb bir-birinə gülümsəyirlər.
Təzəcə açılmış tər bənövşələr
Kolların dibində nəğmə deyirlər.**

Dünyanı məhz bu mənzərədə görmək istəyən şair şeirin sonunda öz arzusunu belə ifadə edir:

**Kaş belə görünə dünya həmişə.**

Bu nöqteyi-nəzərdən kitabın "İnsan və təbiət" adlanan ikinci bölməsindəki şeirlər həqiqətən oxucuya xüsusi zövq verir. Bölmədəki " İnsan", "Damarlar qırılanda", "Bir mənəm, bir səma, bir də ki, dəniz", "Gül, yaman istəyir el xatirini" və başqa şeirlər həm mövzu aktuallığına, həm deyim tərzinə, həm də tərbiyəvi mahiyyətinə görə əsl poeziya nümunələri hesab oluna bilər.

Bəli, "tərbiyəvi mahiyyətinə görə"... Əslinə qalanda hər bir əsər, o cümlədən, hər bir şeir insanları tərbiyə məqsədilə yazılır, oxucuda düz olmaq, həqiqəti sevmək, qurmaq və yaratmaq, gələcək nəsillər üçün yaxşı əməllər qoyub getmək kimi müsbət keyfiyyətlər aşılamaq məqsədi güdür. Bunu dünyanın bir sıra mütəfəkkirləri də təsdiq edirlər. Məsələn, dahi rus yazıçısı Maksim Qorki yazırdı: "Bədii ədəbiyyatın böyük tərbiyəvi gücü olmalıdır. Ona görə ki, o, fikrə və hissə eyni vaxtda və eyni dərəcədə təsir edir. Əksinə, oxucuda heç bir tərbiyə aşılamayan əsər adi bir əyləncə vasitəsindən başqa heç nədir". Məsələyə bu nöqteyi-nəzərdən yanaşanda, görürsən ki, Sahib Əliyevin şeirləri həqiqətən böyük tərbiyə gücünə malikdir. Şair öz şeirlərində insanları vətənə, haqqa, saf niyyətlərə bağlılıq ruhunda tərbiyə etməyə çalışır, onları hər cür fitnə-fəsaddan uzaq olmağa çağırır. "Sualdan sual doğur" və "Eləsi də var, beləsi də" bölmələrində toplanan şeirlər bunu bir daha sübut edir. Həmin şeirlər göstərir ki,şair bədiliyə, sözün obrazlı deyilişinə böyük əhəmiyyət verdiyi kimi, şeiri dərin fikirlərlə yükləməyi də əsas meyarlardan biri hesab edir.

Sahibin bəzi şeirlərini oxuyanda istər-istəməz, Səməd Vurğunun aşağıdakı misraları gəlib yadıma düşür:




**Ah, nə böyük dərd imiş sənətkar olmaq,
Könüllər mülkündən xəbərdar olmaq...**

O zaman bu sözləri oxuyanda şairin nə demək istədiyinin təfərrüatına bir o qədər də varmırdım. Amma sonradan həyatı az-çox başa düşəndə, öyrəndim ki, fitrən sənətkar olan insan, heç özü də hiss etmədən, başqalarının könül mülkünə girir və ayrı-ayrı könüllərdəki cəh-cəh vuran sevinclə yanaşı, boynunu büküb qalmış bir çox ağrı-acıları da görür və bu ağrı-acılar onun da qəlbini kövrəldir. Həmin kövrəklik şairin beyninə də dolur və bir də görürsən, Sahib Əliyev də əlinə qələm alıb yazdı: "Niyə belə yaradıbdı insanı Allah":

**Göy durub
başımızın üstündə
buluduyla, yağışıyla.
Qapaz vurur başımıza,
görürsən,
od püskürən istisilə,
buz bağlayan qışıyla -
öyürük onu.
Yer qalıb
ayağımızın altında
bir dayaq kimi -
üstündə gəzirik.
Gəzə-gəzə də
təpiklərimizlə
bədənini əzirik.
Əzirik, deyəndə,
bir növ,
döyürük onu.
Deməli,
bizə qapaz göstərəni
öyürük,
bizə üz göstərəni
döyürük.
Qəribə məntiqdi bu,
vallah.
Niyə belə yaradıbdı,
görəsən,
insanı Allah?**

Doğrudan da, əsl sənətkar özündən asılı olmayaraq daim, insanların dərdini çəkməyi özünə, bir növ, mənəvi borc hesab edir. Düşünür ki, filan məsələ niyə filan cür olur və ya necə etmək olar ki, filan məsələ filan səviyyəyə qaldırılsın? Bu cəhətdən "Nə mənası var?", "Bəs niyə?", "Həyat nə vaxt yaxşı olur?", "Hara gedib bu həqiqət?", "Bəxtim, mənlə nəydi qəsdin?", "Bu nə cəzadı, Allah?" və bir sıra başqa şeirlər də diqqəti cəlb edir. Gəlin, "Bəs niyə" şeirinə diqqət yetirək:

**Deyirlər,üç yüz il
yaşayır qarğa,
Qartalın həyatı cəmi onca il.
Tikan kollarının ömrü yüz ildi,
Bir aydan o yana solur qızılgül.**

**Arılar bal yığır,
bal da şirinlik,
O da ki, həyatın dadı deməkdi.
Şirinlik - dünyanın nazı, neməti,
Şirinlik - şöhrətin adı deməkdi.**

**Bəs niyə üç ay da yaşamır barı
Dünyaya şirinlik gətirən arı?**

Doğrudur, bu sualların cavabını tapmağa insanların hələlik gücü çatmır. Lakin şair həmin suallarla oxucunu bir daha düşündürür, onu fikrə dalmağa və dünya sirlərini açmaq üçün yollar axtarmağa sövq edir. Sahibin şeirlərini oxuyanda, hiss edirsən ki, o, insan psixologiyasını yaxşı bilir və bu səbəbdən də ayrı-ayrı tiplərin daxili aləmini asanlıqla açmağı bacarır. Götürək elə "Paxıllıq" şeirini. Həmin şeirdə paxıllıq və paxıl adam belə xarakterizə edilir:

**Paxıllıq törəyibdi,
deyirlər ki peyindən.
Elə peyin iyilə də
insanlığı hürküdüb,
çıxarıbdı beyindən.
Gözü - görməz,
üzü - gülməz.
Nə qədər yaxşılıq et
paxıla,
qəti bilməz.**

Faktlar sübut edir ki, paxıllıq adamı həm də namərd edir. Aydındır ki, namərd adam da, adətən, kinli-küdurətli olur, xoşuna gəlməyən hər hansı bir hadisəni, demək olar, ömrü boyu yaddan çıxarmır, yeri gələndə isə fürsəti bada vermir. Şair "Elə buna görə" şeirində oxucuya bu cür izahat verir:

**Mərdin qolu da sınar
bir əlbəyaxada -
deyər ki, işdi, oldu.
Vay ona ki, namərdin
bir topuğu burxuldu...
yüz il də gəlib keçsə,
bu səhnəni unutmaz.**

Və ya, bəzən elə olur ki, bir adamın həyatda heç nədən başı çıxmadığı halda, özünü hamıdan

ağıllı və bilikli hesab edir, hətta aqil adamlara da öyüd-nəsihət vermək istəyir. Belə adamları şair qurbağa cildinə geyindirib ələ salır:

**Quruldayıb, bülbülə
dərs deyirdi qurbağa:
-Çalış sən də mənimtək
"Şikəstə" oxumağa.**

Sahibin bu səpkidə olan əsərləri cərgəsində "Koroğlunun nəvəsi", "Tez sahilə can atdı", "Rüşvətin təzə növü", "Pişiklər üçün yazılmış şeir" və bir sıra başqa şeirlərinin də adlarını çəkə bilərik. Həmin şeirlərin yaxşı məziyyətlərindən biri də odur ki, onlarda konkretlik var. Yəni şair fikri uzatmır, qısa və yığcam şəkildə deyir.

Ümumuyyətlə, kitabdakı şeirlər haqqında çox danışmaq olar. Lakin Sahib Əliyevin yaradıcılığı haqqında məndən əvvəl yazan müəlliflər mənim fikirləşdiklərimin əksəriyyətini dönə-dönə deyiblər. Buna görə də mən öz yazımda təkrarçılığa yol vermək istəmirəm. Ancaq bir məsələnin üstündən ötəri keçmək olmur. O da bundan ibarətdir ki,Sahib Əliyev, doğrudan da, şeirə məsuliyyətlə yanaşır. O, şeiri sadə dildə yazır. Çünki sadəlik hər hansı bir əsəri tez və asan şəkildə başa düşməyə kömək edir. Loru dildə bunu belə izah etmək olar: Mürəkkəb, bir az da qəliz dildə yazanda, əsəri ancaq bir qrup yüksək səviyyəli adamlar qavraya bilirlər, sadə dildə yazanda isə alim də eyni səviyyədə başa düşür, çoban da. Sahibin yazdığı şeirlərin hər birində yüksək poetika var. Şair sözü obrazlı şəkildə ifadə edir. İfadələrində, yuxarıda dediyimiz kimi, dərin məna və şirin cazibədarlıq var. Ona görə də onun şeirləri həmişə sevilir və inanıram ki, bundan sonra da seviləcəkdir.

**Fariz Çobanoğlu**